*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 18 sentyabr 2019-cu il | № 72 (2389) | Qiyməti 30 qəpik


## Azərbaycan Ordusunda genişmiqyaslı təlimlər keçirilir



Tarixi torpaqlarımızın işğal altında olması, milli maraqlarımızın təmin olunmaması tələb edir ki, Azərbaycan hər an müharibəyə hazır olsun. Gələcəkdə müqəddəs vəzifəmizin təmin edilməsinə yardımçı olacaq təlimlər, sözsüz ki, şəxsi heyətdə döyüş hazırlığının yüksəldilməsi, vərdişlərin təkmilləşdirilməsi, ağır şəraitdə aparılan müasir ümumqoşun döyüşünün hərbi elementlərinin qarşılıqlı fəaliyyəti və döyüş uzlaşmasının səviyyəsinin artırılması kimi qəbul edilməlidir. Ancaq onu da inkar etmək olmaz ki, yeni texnoloji vasitələrin və silahların geniş tətbiqi ilə həyata keçirilən təlimlər torpaqlarımızın azad edilməsi naminə şəxsi heyətin döyüş hazırlığının artırılmasına xidmət edir.

Bu gün Azərbaycan Ordusu müxtəlif formalı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Eyni zamanda, təlimlər zamanı qoşunların yüksək döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, onların yenidən qruplaşması üzrə tədbirlərin keçirilməsi, həmçinin döyüş və maddi-texniki təminat məsələləri də yoxlanılır. Tapdanmış haqqımızın bərpa edilməsi naminə ordu quruculuğunu inkişaf etdirmək, döyüş hazırlığını artırmaq Azərbaycan Ordusunun qarşısında duran vacib məsələdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 16-dan Müdafiə nazirinin rəhbərliyi altında Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, hərbi birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.

Sentyabrın 20-dək davam edəcək təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.

Genişmiqyaslı təlimlərin keçirilməsi planına uyğun həyəcan siqnalı ilə qaldırılan qoşunların hərəkəti, idarə edilməsi tələblərə uyğun olaraq, gizli və operativ şəkildə həyata keçirilir.

Keçirilən təlimlərdə qoşunlar cəmləşmə rayonlarını tutur və qruplaşmalar yaradılır. Qoşunların komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunur.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin növbəti mərhələsində plana uyğun olaraq qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar xəritələr üzərinə işlənilir.

Mürəkkəb radioelektron şəraitdə kəşfiyyat və digər orqanlardan əldə olunan məlumatlar xəritələrdə əks olunur.

Mövcud vəziyyətə uyğun hazırlanan məruzələr sərəncam şəklində icra edilməsi məqsədilə müasir rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə komandir-rəis heyətinə çatdırılır.

Təlimlərdə qoşunlar və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması üzrə tapşırıqlar icra edilib.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək bölmələr təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

Həmçinin bu günlərdə Naxçıvan Qarnizonu qoşunlarında ikitərəfli üçpilləli komanda-qərargah təlimi də keçirilib.

Təlimin birinci mərhələsində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün birləşmə və hissələr "Təlim-döyüş həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb.

Təlimin döyüş atışlı mərhələsində ən müasir rabitə və idarəetmə vasitələri ilə təchiz edilmiş bölmələr döyüş atışlarını yerinə yetiriblər. Təlim rayonlarında hava hücumundan müdafiə və raket-artilleriya bölmələrinin təyin edilmiş hədəfləri məhv etmələri topçu və zenitçilərin peşəkarlığını bir daha nümayiş etdirib.

Komanda-qərargah təliminin üçüncü mərhələsində qəbul edilmiş qərarlar kompüterlər üzərində xüsusi proqram vasitəsilə icra edilib.

Yekunda bildirilib ki, keçirilən komanda-qərargah təlimində qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilib, komandir və qərargahların döyüşü idarəetmə vərdişlərinin daha da təkmilləşdirilməsi istiqamətində böyük təcrübə qazanılıb.

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Müdafiə naziri Böyük Britaniyanın ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb

*Sentyabrın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşüb.*



Müdafiə naziri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq, sülh danışıqlarının rəsmi Yerevan tərəfindən qəsdən yubadıldığını vurğulayıb.

Görüşdə iki ölkə arasında müdafiə sahəsində, o cümlədən terrorizmə qarşı mübarizə və sülhməramlı əməliyyatların keçirilməsi üzrə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Tərəflər ölkələrimiz arasında hərbi-texniki sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu və bu imkanların genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Ölkələrimiz arasında hərbi təhsil sahəsində əldə olunan razılaşmaların inkişaf etdirilməsinin, hərbi ingilis dili kurslarının davamının və onların dinləyicilərinin sayının artırılmasının zəruriliyi də xüsusi qeyd edilib.

Ölkəmizdə diplomatik fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən səfir Azərbaycan-Böyük Britaniya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

C.Şarp öz növbəsində Böyük Britaniyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edib, ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

Britaniyalı diplomat, həmçinin regional sabitlik və təhlükəsizliyə yeni çağırış və təhdidlərlə mübarizədə birgə səylərin gücləndirilməsinin vacibliyini vurğulayıb, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəal iştirakına görə Azərbaycana minnətdarlığını bildirib.

Tərəflər regional və ikitərəfli əməkdaşlıq, Xəzər dənizi və mühüm enerji infrastrukturlarının təhlükəsizliyi, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər.

Sonra britaniyalı diplomat ölkəsinin Azərbaycanda yeni təyin olunmuş hərbi attaşesi polkovnik-leytenant Entoni Bramveli Müdafiə nazirinə təqdim edib.

Hərbi attaşeni Azərbaycanda hərbi-diplomatik missiyasına başlaması münasibətilə təbrik edən nazir ona ölkələrimizin orduları arasında əlaqələrin genişləndirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində “Bilik günü” qeyd edilib





Yeni tədris ilinin başlanması münasibətilə Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təntənəli mərasimlər keçirilib. Müdafiə nazirinin tapşırığına əsasən, vəzifəli şəxslər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olublar.

Müdafiə Nazirliyinin rəhbər heyətinin, tədris müəssisələrinin rəislərinin, professor-müəllim və şəxsi heyətin iştirakı ilə keçirilən tədbirlərdə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yeni tədris ilinin başlanması ilə əlaqədar şəxsi heyətə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı və Birinci vitse-prezidentin təbrikləri çatdırılıb.

Mərasimlərdə çıxış edənlər ölkə başçısının təhsil sisteminin inkişafına göstərdiyi qayğını xüsusi vurğulayaraq hərbi təhsilə ciddi diqqət yetirildiyini bir daha qeyd edib, yeni tədris ilinin başlanması münasibətilə şəxsi heyətə təhsildə uğurlar arzulayıblar.

Tədbirlərdə kursantların hazırlıq səviyyəsinin artırılması, nizam-intizamın və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi istiqamətində xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərliyinə Müdafiə nazirinin müvafiq tapşırıq və tövsiyələri çatdırılıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 18-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçirəcəklər.

***17 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Yusifcanlı, Mərzili, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi qulluqçularımız “Saber Junction-19” təlimində iştirak edirlər



Azərbaycan Ordusunun hərbi qulluqçuları Almaniya Federativ Respublikasının "Hohenfels" təlim mərkəzində keçirilən "Saber Junction-19" çoxmillətli briqada taktiki təlimində iştirak edirlər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi təlimdə fəaliyyətlərlə bağlı tapşırıqlar dəqiqləşdirilir və təlimin şəxsi heyətinin təlimatlandırılması icra olunur.

Qeyd edək ki, təlimə Azərbaycan Ordusunun nümayəndələri ilə yanaşı, NATO-nun üzv və tərəfdaş ölkələrinin ordularından 2000-dək hərbi qulluqçu cəlb olunub.

# Əlahiddə Ümumqoşun Orduda silsilə tədbirlər keçirilib

*Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 27-ci ildönümü münasibətilə Əlahiddə Ümumqoşun Orduda silsilə tədbirlər keçirilib. Tədbirlərdə ordu quruculuğu prosesində fəal iştirak etmiş, hazırda ehtiyatda olan müharibə və Silahlı Qüvvələr veteranları da iştirak ediblər.*




Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriklərini şəxsi heyətə çatdırıb. Bildirilib ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin rəhbərliyi ilə milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində Naxçıvanda başlanılıb. 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi formalaşdırıldı, 15 sentyabr 1992-ci ildə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradıldı və 1992-ci il oktyabrın 9-da Naxçıvanda ilk dəfə hərbi parad keçirildi. 21 may 1995-ci ildə həmin briqada motoatıcı diviziyaya, 8 dekabr 1998-ci ildə Ordu Korpusuna, 18 dekabr 2013-cü ildə isə Əlahiddə Ümumqoşun Orduya çevrildi.

General-leytenant Kərəm Mustafayev bildirib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun şəxsi heyəti bütün döyüş tapşırıqlarının öhdəsindən layiqincə gələrək, işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir. "Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Ali Məclis sədrinin qayğısı ilə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur. Uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə qadirdir. Məhz 2018-ci ilin may ayında Günnüt əməliyyatının uğurla nəticələnməsi bunun bariz nümunəsidir. Qazanılan nailiyyətlərin əsasında, ilk növbədə, vətənpərvərlik hissləri dayanır. İyunun 7-dən 11-dək Naxçıvanda keçirilmiş "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimində qarşıya qoyulmuş məqsədlərə nail olunmasında şəxsi heyətin döyüş ruhu və peşəkarlığı əsas rol oynayıb".



Təbrik oxunduqdan sonra hərbi qulluqçulara müxtəlif adda medallar, vaxtından əvvəl və növbəti hərbi rütbələr, fəxri fərman, pul mükafatı və qiymətli hədiyyələr təqdim edilib. Ordu quruculuğu prosesində fəal iştirak etmiş, hazırda isə ehtiyatda olan müharibə və Silahlı Qüvvələr veteranları da qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Tədbirlər mədəniyyət və bədii özfəaliyyət kollektivlərinin konsert proqramları ilə davam edib.

* * *

Heydər Əliyev adına Hərbi Liseydə Bilik Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Naxçıvan Qarnizonu qoşunlarında müxtəlif vəzifələrdə xidmət edən Hərbi liseyin məzunları da iştirak ediblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Bilik Günü münasibətilə zabit, müəllim və kursantları təbrik edərək bildirib ki, 56 kursantla fəaliyyətə başlayan liseydə hazırda 318 kursant təhsil alır. Hərbi liseydə fəaliyyət göstərən pedaqoji kollektivin vətənpərvərliyinin və peşəkarlığının nəticəsidir ki, kursantların təhsilində, tərbiyəsində və intizamında uğurlar qazanılıb. Ötən illər ərzində Hərbi liseyi 3 mindən çox kursant bitirərək müxtəlif ali hərbi məktəblərə daxil olub. Bu il Hərbi liseyi bitirən məzunlardan 154 nəfəri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, 16 nəfəri Türkiyə Respublikasının, 9 nəfəri Rusiya Federasiyasının, 1 nəfəri isə Cənubi Koreya Respublikasının ali hərbi məktəbinə daxil olub.

General-leytenant Kərəm Mustafayev bildirib ki, hər birimizi daha da qürurlandıran Heydər Əliyev adına Hərbi Liseyin məzunlarının ordu sıralarında şərəf və məsuliyyətlə xidmət etmələridir. İnanırıq ki, Hərbi liseyin məzunlarından hazırda Naxçıvan Qarnizonu qoşunlarında müxtəlif vəzifələrdə xidmət edən zabitlərin Bilik Günündə iştirak etmələri hər bir kursantı daha da qürurlandıracaq, dərslərdə daha fəal olmağa həvəsləndirəcək.

Heydər Əliyev adına Hərbi Liseyin müəllimi Təyyubə Bağırova və kursant Tapdıq Abbasov çıxış edərək yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib, bundan sonra da dərslərdə fəal olacaqlarına söz veriblər. Valideynlərdən Şəfahət Kətanov Heydər Əliyev adına Hərbi Liseydə təhsil alan gəncləri təbrik edərək bir valideyn kimi qürurlu olduğunu ifadə edib.

Çıxışların ardından xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya medallar təqdim edilib. Sonra orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib, tribuna önündən təntənəli keçid olub.

Qeyd edək ki, hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayan kursantların hər birinə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş çantalar hədiyyə edilir. Tədbirdə kursant çantalarına baxış olub. Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev pedaqoji kollektivlə görüşüb, keçirilən dərslərlə maraqlanıb.

* * *

Ötən tədris ilini uğurla başa vuran Naxçıvan Qarnizonu tam orta məktəbində də Bilik Günü qeyd edilib. Tədbirdə bildirilib ki, 1 nəfərin qızıl, 2 nəfərin gümüş medala, 4 nəfərin isə fərqlənmə attestatına layiq görüldüyü məktəbin 21 məzunundan 19 nəfəri ali təhsil müəssisələrinə, 2 nəfəri isə orta ixtisas təhsili müəssisələrinə daxil olub. Məzunlardan 5 nəfəri daha yüksək nəticə göstərib. Ötən tədris ilində məktəbin 4 şagirdi Azərbaycan respublikası məktəblilərinin fənn olimpiadalarının respublika mərhələsində qalib adını qazanıb.



Çıxışların ardından ötən tədris ilində uğurlu nəticələr göstərmiş müəllim və şagirdlər qiymətli hədiyyə və fəxri fərmanla təltif ediliblər.

Qeyd edək ki, bu gün 88 şagirdin ilk dəfə qədəm qoyduğu Naxçıvan Qarnizonu tam orta məktəbində 665 şagird təhsil alır.

* * *

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən hərbi rəhbərlərlə növbəti təlim toplantısı keçirilib. Toplantı zamanı hərbi rəhbərlərin sıra hazırlığı yoxlanılıb, kütləvi qırğın silahlarından mühafizə vasitələrinin istifadəsi və müxtəlif təyinatlı silahların natamam sökülüb yığılması üzrə normativlər yerinə yetirilib, tibbi və fiziki hazırlıqdan məşğələlər keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən dərslərdə bildirilib ki, şagirdlərdə hərb sənətinə maraq yaratmaq, gəncləri hərbi xidmətə hazırlamaq üçün muxtar respublikanın bütün tam orta məktəblərində şərait yaradılıb.

Buna görə də hərbi rəhbərlər şagirdlərin ən azı gənc əsgər səviyyəsində yetişdirilməsinə xüsusi diqqət yetirməlidirlər. Nəzəri dərslərdən sonra hərbi vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib.

Təlim mərkəzində müxtəlif silahların təyinatı, taktiki-texniki xüsusiyyətləri ilə tanış olan hərbi rəhbərlər praktiki atışlara cəlb ediliblər. Sonra psixoloji zolağın dəf edilməsi praktiki olaraq toplantı iştirakçılarına göstərilib.

Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən 3 günlük təlim toplantısına Təlim-Tədris Mərkəzində yekun vurulub.

Yekun tədbirində toplantının nəticələri, hərbi rəhbərlərin bilik və bacarıq səviyyələri müzakirə edilib. Tədbirdə çıxış edənlər hərbi rəhbərlərin peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağını bildiriblər.

Sonda hərbi rəhbərləri maraqlandıran suallar cavablandırılıb.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

# Bakının azad edilməsinin 101-ci ildönümü münasibəti ilə yürüş keçirilib



*Müdafiə Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə Bakının azad edilməsinin 101-ci ildönümü münasibəti ilə yürüş keçirilib. Türkiyə və Azərbaycan Respublikalarının dövlət bayraqları, eləcə də xalqımızın ümummilli lideri Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Nuru paşanın portretləri ilə bəzədilmiş avtomobil karvanı "N" hərbi hissədən Qobustan rayonundakı Acıdərə Türk Şəhidliyinə yola düşüb. Yolboyu Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar səsyazma avtomobili vasitəsilə Türkiyə və Azərbaycan xalqlarının zəfər marşları, dostluq və qardaşlıq mahnıları səsləndirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yerli sakinlər yürüş iştirakçılarını alqışlarla qarşılayıblar. Yürüş iştirakçıları Bakının azad edilməsinin 101-ci ildönümü münasibətilə 101 ədəd Azərbaycan Respublikasının və 101 ədəd Türkiyə Respublikasının dövlət bayraqlarını daşıyıblar.

Acıdərə Türk Şəhidliyi ziyarət olunub. Abidə qarşısına Müdafiə Nazirliyi və Türkiyənin Azərbaycandakı səfirliyi adından əklillər qoyulub. Şəhidlərin xatirəsi ehtiramla yad edilib. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri ifa olunub.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani anım mərasimini açaraq 15 sentyabrın XX əsr Azərbaycan tarixində şərəfli bir gün olduğunu bildirib.

Qeyd olunub ki, 101 il öncə Azərbaycan və türk əsgərləri Bakını azad edərək Azərbaycan tarixinə şanlı bir səhifə yazıblar. Azərbaycanda ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına birdəfəlik son qoyulub. Özünün son dərəcə ağır durumda olmasına, Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə Azərbaycana hərbi qüvvələr göndərib.

1918-ci il avqust-sentyabr aylarında Osmanlı Türkiyəsi öz tarixi missiyasını uğurla yerinə yetirərək Azərbaycan korpusunun döyüşçüləri ilə birlikdə Bakı və ətraf rayonları azad ediblər. Məhz bu zəfər yürüşü iki gün sonra Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtının Gəncədən Bakıya köçürülməsinə zəmin yaradıb.

Anım mərasimində vurğulanıb ki, Azərbaycan müstəqillik illərində dinamik sürətlə inkişaf edərək güclü və qüdrətli ölkəyə çevrilib. Azərbaycan-Türkiyə qardaşlığı bu gün də ən yüksək səviyyədədir. Bu dostluq və qardaşlıq sarsılmazdır, əbədidir. Biz bu tərəqqi üçün, bugünki xoşbəxt, firavan həyat üçün geniş sinələrini Vətənimizə, xalqımıza tuşlanan güllələrə sipər edən qəhrəman şəhidlərimizə minnətdarıq.



Böyük Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir.



Azərbaycan bizim qardaşımızdır", ulu öndər Heydər Əliyevin isə "Biz bir millət, iki dövlətik. Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir" kəlamları ilə çıxışına başlayan Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan



Özoral isə deyib: "Bizim dostluğumuz, qardaşlığımız çoxəsrlik tarixi ənənələrə arxalanır. Bizim dədələrimiz-babalarımız dar gündə bir-birilərinin harayına çatıblar. Bir səngərdə ümumi düşmənə qarşı birlikdə mücadilə aparıblar. Biz Çanaqqala savaşında şəhid olan azərbaycanlıları, Cümhuriyyət quruculuğu ərəfəsində Azərbaycanın göstərdiyi qardaş köməyini heç vaxt unutmuruq. Biz həmişə sizin yanınızdayıq. Beynəlxalq tədbirlərdə Azərbaycan nümayəndəsi yoxdursa, biz varıq, bizim nümayəndəmiz yoxdursa, siz varsınız. Biz bir millət, iki dövlətik".

Səfir diqqətə çatdırıb ki, 15 sentyabrda Bakının qurtuluşu nəinki azərbaycanlılar, hətta Anadolu türkləri üçün də olduqca böyük hadisədir. Azərbaycanın müstəqilliyi Türkiyə tarixi üçün də önəmli dönüş nöqtəsidir. Bu günün həm Türkiyə, həm də Azərbaycan xalqları tərəfindən birgə, təntənəli şəkildə keçirilməsinin əsas məqsədi 101 il öncə baş verənləri xalqa aşılamaq, xüsusilə də gələcək nəsillərə hansı səbəbdən bir yerdə, qardaş olduğumuzu, tariximizdə nələrin baş verdiyini çatdırmaqdır. Biz bütün həqiqətləri xalqa çatdırmalıyıq. Onlar türkün tarixində utanılacaq heç bir şeyin olmadığını öyrənməlidirlər.

Səfir E.Özoral ötən il Bakının qurtuluşunun 100 illiyi münasibəti ilə keçirilən paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakını xatırlayaraq "Hər iki ölkə rəhbərinin hərbi paradda iştirakı, onların Türkiyə-Azərbaycan qardaşlığının bundan sonra da əbədi və sarsılmaz olacağına əminlikləri, düşmənlərimizə birgə mesajları tarixi məqamlardır. Bundan əlavə, unudulmaz, yaddaqalan hadisədir ki, 100 il əvvəl olduğu kimi türk əsgəri azərbaycanlı qardaşları ilə birgə yenidən Bakı təntənəsinə qoşuldu, türk əsgəri bu böyük zəfəri azərbaycanlı qardaşı ilə bir yerdə qeyd etdi. Bu, bir səfir olaraq mənim yaşaya biləcəyim ən böyük sevinc hissidir", - deyib.

General-mayor Vasif Kazımov, Türkiyədən gəlmiş qazilər adından istefada olan general-leytenant Cumhur Evcil, Qobustan Rayon Ağsaqqallar Şurasının sədri Şıxbaba Bayramov və başqaları çıxış edərək şəhidlərə ehtiramlarını bildirib və Türkiyə-Azərbaycan xalqlarının sarsılmaz birliyindən iftixarla söhbət açıblar.

Qobustan Rayon şəhid Qalib Ələkbərov adına Çuxanlı kənd tam orta məktəbinin şagirdləri "Yol ver Türkün bayrağına!" adlı ədəbi kompozisiya ilə çıxış ediblər.

Sonra şəhid türk zabitinin məzarı ziyarət olunub, üstünə qərənfillər düzülüb, dualar oxunub.

Yürüş və anım mərasimində Türkiyədən gəlmiş qazilər, Türkiyə Silahlı Qüvvələrinin general və zabitləri, Azərbaycan Ordusunun və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Türkiyədən gəlmiş qazilər Bakının qurtuluşu gününə həsr olunmuş mərasimdə "Yallı" halayına qoşulublar



*Müdafiə Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə Bakının bolşevik-daşnak işğalından azad edilməsinin 101-ci ildönümü münasibəti ilə sentyabrın 15-də təntənəli mərasim keçirilib. Bakı Qarnizonundakı hərbi hissələri, qoşunları təmsil edən əsgər və zabitlər, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları Türkiyə səfirliyində Mustafa Kamal Atatürkün və Nuru Paşanın abidələrini ziyarət edib, Nuru Paşa salonu ilə tanış olublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan və Türkiyə Respublikalarının dövlət bayraqları ilə bəzədilmiş amfiteatrda əsl bayram əhval-ruhiyyəsi yaşanıb. Hərbi orkestr Türkiyədən gəlmiş qaziləri, istefada olan türk paşalarını, Türkiyə Silahlı Qüvvələri və Azərbaycan Ordusu rəsmilərini, qeyri-hökumət təşkilatları və ictimaiyyət nümayəndələrini 101 il öncənin əsgər mahnı və marşları ilə qarşılayıb.

Layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani 1918-ci ilin 15 sentyabr gününü Bakının qurtuluş günü kimi səciyyələndirərək, bu günün ölkəmizin XX əsr tarixində şərəfli bir gün olduğunu böyük fəxarət hissi ilə qeyd edib.

"101 il öncə Azərbaycan Əlahiddə Korpusu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Azərbaycan və Türkiyə əsgərlərinin, zabitlərinin qəhrəmanlığı, rəşadəti nəticəsində Bakı tamamilə azad olundu. Tarixi düşmənlərimizin arzuları gözlərində qaldı, onlar mənfur niyyətlərini həyata keçirə bilmədilər. Müstəqilliyini yenicə elan etmiş Azərbaycan Xalq Cümhuriyyətini beşikdə boğmaq istəyən nankor qüvvələr qəhrəman "mehmetciyin" və Azərbaycan Ordusunun ilk döyüşçülərinin qarşısında duruş gətirə bilmədilər. Neçə-neçə şəhidlər verilsə də, Qafqaz İslam Ordusunun əsgər və zabitləri ruhdan düşmədi, bir addım da olsun geri çəkilmədi, döyüş meydanlarında Anadolu türklərinin qanı azərbaycanlıların qanına qarışdı.

15 sentyabr Bakının işğaldan azad edilməsi günü sevinci və kədəri bir olan, bir millət, iki dövlətin, Azərbaycan və Türkiyə xalqlarının müştərək zəfər bayramı günüdür. Bakının qurtuluşundan əsrdən artıq bir vaxt ötsə də, xalqımız "Qan ilə qazandıq zəfəri, verməyiz əldən!" şüarı ilə vuruşmuş türk və azərbaycanlı əsgərlərin xatirəsini həmişə əziz tutur, onları minnətdarlıqla yad edir. Biz 101 il öncə olduğu kimi 15 sentyabr gününü bu gün də birlikdə qeyd edir, gələcəkdə də əziz bayram kimi qeyd edəcəyik. Bu, heç kimdə şübhə doğurmamalıdır", - polkovnik A.Qurbani deyib.

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün, ulu öndər Heydər Əliyevin, Nuru Paşanın, həmçinin hər iki ölkənin şəhidlərinin xatirəsi saygı duruşu ilə yad edilib, hərbi orkestrin müşayiəti ilə dövlət himnləri ifa olunub.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral təntənəli mərasimə toplaşanları salamlayıb, əlamətdar gün münasibətilə təbrik edib, tədbirin təşkilində göstərdiyi köməyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə və təşkilatçılara minnətdarlığını bildirib.

Səfir qeyd edib ki, Bakının işğaldan azad edilməsi bütün türk dünyası və onun gələcəyi üçün tarixi bir hadisə idi. Bu, Azərbaycan-Türkiyə münasibətləri baxımından deyil, həm də dünya tarixi üçün önəmli bir hadisə idi. Bu, Azərbaycan və Anadolu türklərinin qardaşlığının, birliyinin, həmrəyliyinin bariz nümunəsi idi. Birinci Dünya müharibəsinin bitməsindən sonra Osmanlı İmperiyası son günlərini yaşamasına, parçalanmaq təhlükəsi ilə üzləşməsinə baxmayaraq, ən yaxşı əsgərlərini Azərbaycana köməyə göndərdi. Onlar qardaş köməyinə gəldilər, döyüşdülər, yaralandılar, şəhid oldular. Ancaq qarşılarına qoyduqları məqsədə çatdılar. Bakı və ətraf rayonlar işğaldan azad edildi.







Daha sonra E.Özoral Türkiyədə Qurtuluş savaşına böyük dəstək vermiş və nəticədə Türkiyənin dünya xəritəsindən silinməsinə qarşı mübarizədə onlara böyük dəstək olmuş Nəriman Nərimanova Mustafa Kamal Atatürkün bu köməyin əvəzini verməyini təklif etdiyində N.Nərimanovun ona "Paşam, Türk millətində bir ənənə vardır, qardaş qardaşa borc verməz, qardaş hər durumda qardaşın əlindən tutar" cavabını verdiyini xatırlayıb və bunun bir ənənə, örnək olduğunu bildirib.

Fövqəladə və səlahiyyətli səfir ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamlarının hər iki ölkənin vətəndaşları üçün şüar olduğunu, bu qardaşlığın Azərbaycan və Türkiyə Respublikalarının prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən bu gün də uğurla davam etdirildiyini söyləyib.

İstefada olan general-leytenant Yaşar Aydəmirov, general-mayor Rasim Əliyev isə çıxışlarında Nuru Paşanı və onun qəhrəman "mehmetciklərini" ehtiramla yad edib, Türkiyə təmsilçilərinə minnətdarlıqlarını bildirib və tədbir iştirakçılarına Müdafiə Nazirliyinin rəhbərliyinin təbrikini çatdırıblar.

Türk qaziləri adından söz alan Anadolu Aydınlar Ocağının rəhbəri, professor-doktor, istefada olan polkovnik İbrahim Öztek Azərbaycan-Türkiyə qardaşlığına həsr etdiyi yeni şeirini oxuyub.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının, "Səma" rəqs qrupunun və incəsənət ustalarının iştirakı ilə "Bir ürəkdə iki can - Türkiyə-Azərbaycan" adlı ədəbi-musiqili bədii proqram təqdim olunub. Türkiyə və Azərbaycan xalqlarının mahnıları, milli rəqslər və şeirlər mərasimi coşdurub.

Bakının qurtuluşu gününə həsr olunmuş təntənəli mərasimdə Türkiyədən gəlmiş, yaşları 80-90-ı haqlamış türk qaziləri yallı halayına qoşulub, "Nuru Paşa", "Çırpınırdın Qara dəniz", "Qardaşlıq türküsü" mahnılarını ifa edənlərin səslərinə səs veriblər.

Bakının işğaldan azad edilməsinin 101-ci ildönümünə həsr olunmuş təntənəli mərasim Azərbaycan-Türkiyə qardaşlığının nümayişinə çevrilib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.**

**2. Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət.**

**Mövzu:** Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları.

*Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normaları*

Müharibə - dövlətlər, xalqlar və sosial qrupların münasibətinin dəyişməsi, siyasi-iqtisadi və digər məqsədlərə nail olmaq üçün zorakılıq vasitələrinin tətbiqi ilə bağlı çox mürəkkəb və çoxcəhətli ictimai-siyasi hadisədir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəşəriyyət tarixi müharibələrlə zəngindir və bu gün də müasir dünyada bəzən siyasi qərarların həllində zor tətbiq edilməsi hallarına rast gəlmək olur. Müharibələrin qarşısını almaq mümkün olmasa da, dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul edilmiş, beynəlxalq konvensiyalarda öz əksini tapmış hüquq qaydaları mövcuddur. Bu qaydalar beynəlxalq humanitar hüququn əsasını təşkil edir.

Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn bir sahəsi olub, həm beynəlxalq silahlı münaqişələr, həm də qeyri-beynəlxalq silahlı münaqişələrlə əlaqədar beynəlxalq hüququn subyektləri arasında yaranmış münaqişənin zərər vurduğu və ya zərər vura biləcəyi insanların, əmlakın mühafizəsi, müharibənin aparılmasının üsul və vasitələrinin məhdudlaşdırılması sahəsindəki münasibətləri tənzimləyən, həmçinin onun norma və prinsiplərinə görə məsuliyyəti müəyyənləşdirən beynəlxalq hüquq normalarının məcmusudur. Beynəlxalq humanitar hüquq silahlı münaqişə yarandıqda fəaliyyətə başlayır. Beynəlxalq humanitar hüququn obyektini silahlı münaqişənin gedişində döyüşən tərəflər arasında yaranan ictimai münasibətlər təşkil edir.

Beynəlxalq humanitar hüquq - silahlı münaqişələr zamanı tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquqi normaların məcmusuna deyilir. "Beynəlxalq humanitar hüquq" görkəmli alim Jan Pikte tərəfindən beynəlxalq-hüquqi leksikona daxil edilmiş nisbətən yeni termindir. Beynəlxalq hüququn bu mühüm sahəsi müxtəlif cür adlandırılır: silahlı münaqişələr dövründə tətbiq edilən hüquq; müharibə hüququ; silahlı münaqişələr hüququ; müharibə qanunu və s. Xüsusi vurğulamaq lazımdır ki, beynəlxalq humanitar hüquq müharibəni qadağan etmir. O, obrazlı desək, birbaşa döyüş meydanına gəlir və sırf humanist mövqedən çıxış edərək, artıq başlamış müharibəni, onun xarakterindən və başlama səbəblərindən asılı olmayaraq, müəyyən normativ çərçivəyə salmağa can atır. Bundan çıxış edərək, beynəlxalq humanitar hüququn iki başlıca məqsədini göstərmək olar:

1. Kombatant olmayanları, yəni mülki şəxsləri və sıradan çıxmış hərbi qulluqçuları müdafiə etmək və onlarla humanist rəftarı təmin etmək. Bu məqsədi beynəlxalq humanitar hüququn bir hissəsi olan "Cenevrə hüququ" həyata keçirir. "Cenevrə hüququ" termini, əsas etibarilə, müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyalarına istinad edilərək götürülmüşdür.

2. Seçimsiz zorakılığın artıq əzab-əziyyətin qarşısını almaq üçün, döyüş aparılmasının müəyyən metod və vasitələrini məhdudlaşdırmaq və ya qadağan etmək. Beynəlxalq humanitar hüququn bu məqsədin həyata keçirilməsinə yönəlmiş hissəsi "Haaqa hüququ" adlandırılır (1899 və 1907-ci illərdə Haaqa sülh konfranslarında qəbul olunmuş müvafiq sənədlərə istinadən).

Beynəlxalq humanitar hüquq, əsas etibarilə, müqavilələrə söykənir. Bu sahədə aşağıdakı sazişləri göstərmək olar:

- partlayıcı və yandırıcı güllələrin istifadəsinin ləğv edilməsi haqqında Sankt-Peterburq Bəyannaməsi (11 dekabr 1868);
- asanlıqla dönə bilən və yastılanan güllələrin istifadə olunması haqqında Haaqa Bəyannaməsi (29 iyul 1899);
- quru müharibəsinin qanun və adətləri haqqında IX Haaqa Konvensiyası (Quru müharibəsinin qanun və adətləri haqqında) - 18 oktyabr 1907;
- boğucu, zəhərli və ya digər belə qazların və bakterioloji vasitələrin müharibədə tətbiqinin qadağan olunması haqqında Cenevrə Protokolu (17 iyun 1925);
- genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (9 dekabr 1948);
- müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları (12 avqust 1949);
- quruda döyüşən silahlı qüvvələrdə yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (I Konvensiya);
- dənizdəki silahlı qüvvələrdə yaralı, xəstə və gəmi qəzasına uğramış üzvlərinin vəziyyətinin yaxşılaşdırılması haqqında Cenevrə Konvensiyası (II Konvensiya);
- hərbi əsirlərlə rəftara dair Cenevrə Konvensiyası (III Konvensiya);
- müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair Cenevrə Konvensiyası (IV Konvensiya);
- silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa Konvensiyası (14 may 1954);
- bakterioloji (bioloji) və zəhərli (toksinli) silahların işlənib hazırlanması, istehsal edilməsi və ehtiyata toplanılmasının qadağan olunması və onların məhv olunması haqqında Konvensiya (10 aprel 1972);
- ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında Konvensiya (10 dekabr 1976);
- 12 avqust 1949-cu il Cenevrə Konvensiyalarına əlavə Protokollar;
- Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (I Protokol) 8 iyun 1977;
- qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Protokol (II Protokol) - 8 iyun 1977;
- hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya (10 oktyabr 1980).

Konvensiyaya 3 protokol əlavə olunmuşdur:

- aşkar edilməyən qəlpələr haqqında Protokol (I Protokol).
- minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Protokol (II Protokol).
- yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında Protokol (III Protokol);

Sadalanmış bu beynəlxalq müqavilələr içərisində beynəlxalq humanitar hüquq üçün ən əhəmiyyətlisi, şübhəsiz ki, müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları və onlara 1977-ci il Əlavə Protokollarıdır.

Beynəlxalq humanitar hüququn əsas prinsipləri:

- hərbi zərurət və ictimai qaydanın qorunması həmişə insana hörmətlə uzlaşdırılmalıdır;
- sıradan çıxarılmış şəxslər, həmçinin bilavasitə döyüşlərdə iştirak etməyənlər hörmət, müdafiə və humanitar hüquqa malikdirlər;
- döyüş aparılmasının metod və vasitələrinin seçilməsində vuruşan tərəflərin üzərinə məhdudiyyətlər qoyulması.

Beynəlxalq humanitar hüququn tətbiqi prinsipləri:

Toxunulmazlıq prinsipi.

Bu prinsipə əsasən:

- döyüş meydanında həlak olan toxunulmazdır; əsir düşənlərin həyatının mühafizə olunmaq hüququ vardır. Açıq surətdə tabe olan (əsir düşən) şəxsləri öldürmək olmaz;
- işgəncə, alçaldıcı və qeyri-insani cəza qadağan olunur;
- hər bir kəsin qanun qarşısında insan hüquqlarının tanınması hüququ vardır;
- hər bir kəsin onun şərəfinə, ailə hüquqlarına, əqidəsinə və adətlərinə hörmət hüquqları vardır;
- əzab çəkən hər kəsə və onun konkret fiziki-psixoloji vəziyyətində zəruri olan qulluq göstərilməlidir;
- hər bir kəsin ailəsi ilə əlaqə saxlamaq və kömək almaq hüququ vardır;
- heç kim qanunsuz yol ilə mülkiyyətindən məhrum edilə bilməz.

Hərbi əməliyyatlar aparılmasının metod və vasitələrinə görə, məhdudiyyət prinsipinin mahiyyəti ondan ibarətdir ki, hərbi əməliyyatları kiməsə lüzumsuz zərər vura və ya həddən artıq əzab verə biləcək silah və ya metodlardan istifadə etməklə aparmaq qadağandır. Həmin prinsipə əsasən:

- hədəflərə fərq qoymadan edilən hücumlar qadağandır;
- mülki əhali arasında itkilərə səbəb olacaq və mülki obyektlərə zərər vura biləcək hücumlar qadağandır;
- hərbi əməliyyatlar zamanı təbii mühitin qorunması üçün qayğı göstərilməlidir;
- mülki əhali arasında müharibə aparmaq metodu kimi aclıqdan istifadə etmək qadağandır;
- xəyanətə əsaslanan hərbi əməliyyatlar qadağandır.

Qeyd etmək lazımdır ki, beynəlxalq humanitar hüququn prinsipləri ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin prinsiplərini (humanitar, qərəzsizlik, neytrallıq, müstəqillik, könüllülük, vahidlik, universallıq) bir-birinə qarışdırmaq olmaz. Qırmızı Xaçın prinsipləri 1965-ci ildə Vyanada keçirilən Qırmızı Xaçın XX Beynəlxalq konfransında qəbul edilmiş bəyannamədə öz əksini tapmışdır. Beynəlxalq humanitar hüququn prinsiplərinin mənbəyini isə beynəlxalq müqavilələr və konvensiyalar təşkil edir. BQXK-nın prinsipləri qeyri-hökumət təşkilatı olaraq Qırmızı Xaçın fəaliyyəti üçün əsas istiqamət kimi çıxış edir. Beynəlxalq humanitar hüququn prinsipləri isə silahlı münaqişə zamanı döyüşən tərəflər arasında münasibətləri tənzimləyir.

*Silahlı münaqişələr zamanı tətbiq olunan beynəlxalq hüquq normalarını pozmağa görə məsuliyyət*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bütün qanunvericilik aktları beynəlxalq hüququn normalarına uyğunlaşdırılmışdır. O cümlədən də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 116-cı maddəsilə silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa görə cinayət məsuliyyəti müəyyən edilib.

Silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq normalarını pozmaq dedikdə aşağıdakılar nəzərdə tutulur:

- mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə;
- ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma;
- sülhməramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardım göstərilməsinə cəlb olunmuş şəxsi heyətə, o cümlədən Qırmızı Xaç və ya Qızıl Aypara fərqləndirici emblemləri olan heyətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə hücum etmə;
- hərbi əməliyyatların aparılma üsulu kimi mülki əhali arasında yaranmış aclıqdan istifadə etmə;
- yetkinlik yaşına çatmayanları Silahlı Qüvvələrə cəlb etmə;
- hərbi zərurətdən irəli gəlməyən genişmiqyaslı dağıntılar törətmə;
- müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə;
- hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən, o cümlədən xüsusi mühafizə olunan tarixi, dini, təhsil, incəsənət, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə;
- müvəqqəti barışıq haqqında, yaxud həlak olanların və ya yaralıların döyüş meydanından aparılması, dəyişdirilməsi və ya daşınması məqsədilə döyüş əməliyyatlarının dayandırılması barədə sazişi pozma;
- mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmə;
- hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlaklarını məhv etmə, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq alma;
- dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmə;
- hərbi əməliyyatlarda birbaşa iştirakını aşkar surətdə dayandırmış, həmçinin silahlı olmayan və ya silahını yerə qoymaqla təslim olan, yaxud yaralanma və ya başqa səbəbdən müqavimət göstərə bilməyən şəxsə hücum etmə;
- işğal olunmuş ərazilərdə öz mülki əhalisinin bir hissəsini yerləşdirmə;
- hərbi əsirlərin və mülki şəxslərin Vətənə qaytarılmasını əsassız olaraq gecikdirmə;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsulları silahlı münaqişələrdə tətbiq etmə.

Yuxarıda göstərilən hüquq pozuntularına görə yeddi ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən edilmişdir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha xatırlatmalıdır ki, Ermənistanın silahlı qüvvələri 1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazisinin 20 faizini işğal etməyə müvəffəq olmuşdur. Bu işğalın səbəbləri və nəticələri haqqında əvvəlki ictimai-siyasi hazırlıq dərslərində ətraflı məlumatlar verilmişdir. Ancaq qeyd etmək lazımdır ki, ermənilərin öz işğalçılıq planlarını həyata keçirərkən həm dinc əhaliyə, həm də yaralanmış və əsir düşmüş döyüşçülərimizə qarşı törətdikləri vəhşiliklər II Dünya müharibəsində faşistlərin törətdikləri vəhşiliklərlə müqayisədə daha dəhşətlidir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində andiçmə mərasimləri keçirildi



*Tədris ilinin başlanması münasibəti ilə hərbi kadrların hazırlanmasını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisələrinə yeni qəbul olan kursantların andiçmə mərasimləri keçirilib. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyətinin, valideynlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.*

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə yeni qəbul olan kursantların andiçmə mərasimi ənənəvi olaraq hərbi ritualların yerinə yetirilməsi ilə başladı. Şəxsi heyətin andiçmə mərasiminə düzüldüyü barədə hərbi məktəbin rəisi general-mayor Fizuli Salahova məruzə edildi. Hərbi məktəbin rəisi gənc kursantları salamladı. Daha sonra tədbir iştirakçılarına təntənəli andiçmə mərasiminin proqramı çatdırıldıqdan sonra gənc kursantlar Vətənə sədaqət andı içdilər.



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov gənc kursantları Hərbi andı qəbul etməkləri münasibəti ilə təbrik etdi və valideynlərə göz aydınlığı verdi. Məktəb rəisi bildirdi ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbi ordumuzu savadlı və peşəkar zabitlərlə komplektləşdirərək ən əhəmiyyətli və vacib vəzifələrdən birini yerinə yetirir. General-mayor Fizuli Salahov güclü ordunun peşəkar zabiti olmaq yolunda hər bir kursantın üzərinə böyük məsuliyyət düşdüyünü bildirərək, onlara xidmətlərində uğurlar arzuladı.

Polkovnik Emin Səfərov tədbir iştirakçılarını salamlayaraq bu günün həm gənc kursantlar üçün, həm də onların doğmaları üçün əlamətdar olduğunu vurğuladı. Müasir ordu quruculuğumuzun banisi olan ulu öndər Heydər Əliyevin nizami ordumuzun formalaşmasında gördüyü işlərdən bəhs edən polkovnik E.Səfərov bildirdi ki, ordumuzda milli kadr hazırlığı məhz Ulu Öndərin adı ilə bağlıdır. "Müasir ordu quruculuğunun banisi Heydər Əliyev ölkəmizdə yüksək peşəkarlığa malik zabitlərin hazırlanmasını prioritet məsələlərdən biri saydı. Ali Baş Komandan İlham Əliyev Ulu Öndər kursunun layiqli davamçısı olaraq, bu gün ordumuzun gücünün artırılması üçün xeyli işlər görür. Ordu sıralarımızda kifayət qədər peşəkar hərbi qulluqçularımız var. Və bu rəqəm artan xətlə davam edir. Məlumdur ki, bu gün hərb peşəsinə maraq yüksəkdir. Qədim zamanlardan cəsur, qəhrəman oğullar yetişdirmiş məmləkətimiz bu gün də tarixi ənənələrin davamı olaraq vətənpərvər oğulları ilə qürur duyur. Məktəbimizin məzunu olan yüzlərlə hərbçimiz döyüşlərdə rəşadət göstəriblər. Onların arasında şəhid olanlar da var ki, hər birinin ruhu bizim üçün əzizdir. Bu gün Vətənə sədaqət andı içən kursantlara arzum ondan ibarətdir ki, gələcəyin peşəkar zabiti olaraq qazanacağınız uğurlarla məktəbin şərəfini uca tutasınız".

Gənc kursantlar adından çıxış edən Əli Hacıyev təhsil müddətində hərbi bilikləri mənimsəmək üçün əllərindən gələni əsirgəməyəcəklərinə və istər kursant, istərsə də zabit olduqları müddətdə həm müəllimlərinə, həm də valideynlərinə baş ucalığı gətirəcəklərinə söz verdi.

- Təhsil alacağımız dövrdə komandirlərimizin, müəllimlərimizin əmr və tələblərinə sözsüz əməl edəcək, nizam-intizamlı olacaq, keçirilən dərsləri dərindən mənimsəyəcəyik. Hər birimizin borcu üzərimizdə gəzdirdiyimiz mundirə layiq hərbi qulluqçu, güclü ordumuza layiq zabit, Vətənimizə layiq vətənpərvər bir şəxs olmaqdır. Bu gün ordu sıralarında xidmət edən şəxs kimi qarşımızda duran ən ümdə vəzifə Vətənimizi göz bəbəyi kimi qorumaq, onu layiqincə təmsil etməkdir.

Valideynlər adından çıxış edən İslam Məmmədov öz övladının timsalında hər bir kursantla qürur duyduğunu bildirdi və qeyd etdi ki, övladını hərbi mundirdə görən valideyn üçün bundan böyük fəxarət hissi ola bilməz. O, həmçinin müəllim-professor, komandir heyətinə bu şərəfli yolda uğurlar arzuladı, gənc kursantlara tövsiyə olaraq bildirdi ki, təhsil müddəti boyunca onların təcrübələri və savadından maksimum faydalansınlar.

Sonda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin gənc kursantları məktəb marşını ifa etdilər, sonra isə təntənəli marşla tribuna önündən keçdilər.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə keçirilən tədbiri liseyin rəisi general-mayor Bəkir Orucov açaraq iştirakçıları Müdafiə Nazirliyinin rəhbərliyi adından tədris ilinin başlanması münasibəti ilə təbrik etdi, gənc kursantlara təhsil müddətində və xidmətlərində uğurlar arzuladı. "Hərbi liseyin birinci kursuna qəbul olan kursantlar üçün bu gün çox əlamətdardır. Onlar "Şərəf Andı"nı qəbul edəcəklər. Arzu edirəm ki, həmişə içdikləri anda sadiq qalaraq, komandanlığın və valideynlərinin ümidlərini doğrultsunlar. Bu gün ordumuz üçün zabit kadrlarının hazırlanmasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin xüsusi yeri vardır. Hərbi təhsil ocağı ulu öndər Heydər Əliyevin milli ordu quruculuğu tarixində yaratdığı ən böyük abidələrdən biridir. Məktəb gənclərin Ali Hərbi Məktəblərə hazırlığında baza rolunu oynayır. Buna görə də Hərbi liseyin fəaliyyəti həmişə Azərbaycan dövlətinin diqqəti və qayğısı ilə əhatə olunur. Bunun bariz nümunəsi kimi təhsil ocağında aparılan əsaslı təmir-tikinti işlərini göstərmək olar. Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə 2019-cu il iyunun 26-da liseyin açılışı həyata keçirildi. Burada yeni qərargah binası, ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, onun şərəfli ömür yolunun öyrənilməsi məqsədi ilə Heydər Əliyev adına Muzey inşa edilib, kursantların fiziki hazırlığının yüksəldilməsi və inkişafı üçün müasir tələblərə cavab verən idman kompleksi yaradılıb. Ayrıca kursantların asudə vaxtının səmərəli təşkili, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün klub, yeni avadanlıqlarla təchiz edilmiş yeməkxana binası şəxsi heyətin istifadəsinə verilib".

Daha sonra liseyin rəisi kursantlara müraciət edərək dedi ki, Azərbaycan Ordusunun gələcəyinin bilavasitə onlardan asılı olduğunu heç vaxt yaddan çıxarmasınlar. "Siz öz təhsilinizdə və yüksək mənəvi keyfiyyətlərinizlə şanlı ənənələri olan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı adını şərəf və vicdanla daşımalı, gələcəkdə Azərbaycan zabitinin adını daha da yüksəklərə qaldırmalısınız. Çalışın hər zaman ləyaqətli vətəndaş kimi dövlətimizin və millətimizin layiqli təmsilçiləri olasınız."



- Əziz kursantlar sizi "Şərəf Andı"nı qəbul etməyiniz münasibəti ilə təbrik edirəm, - deyə liseyin müəllimi Gülşən İsgəndərov çıxışına başladı. - Bu gün qarşınızda duran əsas vəzifə yaxşı oxumaq, dərin biliyə yiyələnməkdir. Siz dövlətimizə gərəkli vətəndaş, ordumuza dəyərli zabit olmalısınız. Bu çətin və şərəfli yolda uğurlar qazanmaq üçün biz müəllimlər əlimizdən gələni əsirgəməyəcəyik. Hərbi liseyimizin məzunları ordumuzun yaranmasında, Vətənimizin qorunması uğrunda mübarizədə həmişə öndə olublar. Onlardan 100-dən çoxu göstərdikləri qəhrəmanlığa görə orden və medallarla təltif olunublar, 11 nəfəri isə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülüb. Siz də hər an düşmən tapdağında olan torpaqlarımızı azad etməyə hazır olmalısınız. Unutmayın ki, bu günün kursantı sabahın savadlı komandiridir.

Valideynlər adından çıxış edən Zülfiyyə Əliyeva övladının şanlı ənənələri olan bu Vətənə, bu xalqa onlarla general, Milli qəhrəmanlar yetişdirmiş bir təhsil ocağında oxuyacağı ilə fəxr etdiyini bildirdi. "Övladımın Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alması ən böyük arzum idi. Bu arzu mənim qəlbimdə həyat yoldaşım dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olduqdan sonra doğmuşdu. İstəyirəm ki, övladım təhsilini başa vurub zabit olsun, atasının yarıda qalmış arzularını davam etdirərək, onun qisasını düşməndən alsın. Bu gün şahidi olduq ki, bu müqəddəs elm ocağında kursantların şəxsiyyət kimi formalaşması üçün bütün imkanlar yaradılıb. Belə güclü kadr potensialına malik olan təhsil ocağında övladlarımız hərbi biliklərə dərindən yiyələnəcək, dövlətimiz üçün layiqli vətəndaş, ordumuz üçün gərəkli zabit kimi yetişəcəklər. Bütün valideynlər adından məktəbin rəhbərliyinə və pedaqoji kollektivinə yeni tədris ilində nailiyyətlər arzulayıram."

- Qürur hissi keçirirəm ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantıyam, - deyə kursant Nicat Qayıbov çıxışına başladı. - Hərbçi olmaq arzusu ürəyimdə hələ kiçik yaşlarından tumurcuqlamışdı. Elə bu arzu da məni liseyə gətirib çıxardı. Düşünürəm ki, böyük bir yolun başlanğıcındayam. Gələcəkdə savadlı, geniş dünyagörüşlü zabit olmaq üçün öyrədilənləri dərindən mənimsəməliyəm. Qarşımda qoyduğum məqsədimə çatmaq üçün zabit, müəllim və tərbiyəçilərin verdiyi tapşırıqlara məsuliyyət və diqqətlə yanaşacağam. Bununla Ulu Öndərimizin qarşısında bir kursant və gələcək hərbçi kimi mənəvi borcumuzu yerinə yetirmiş olacağıq.

Çıxışlardan sonra sıra meydanında gənc kursantlar "Şərəf Andı" içib, liseyin "Naxçıvanskilər" marşını ifa etdilər.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin rəngarəng konsert proqramı ilə başa çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# "Konflikt jurnalistikası məktəbi"nin növbəti təlimi keçirildi

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Hərbi Hava Qüvvələrində növbəti auditoriya təlimi keçirildi.*



Jurnalistlər qarşısında çıxış edən hərbi hissənin zabitləri bildirdilər ki, Hərbi Hava Qüvvələrinin təyinatı respublikamızın hava məkanının nəzarətdə saxlanılmasını düşmənin hava hücumu vasitələrini hava döyüşlərində məhv etməklə dövlət sərhədlərinin müdafiəsini təmin etmək, vizual müşahidə olunan hədəfləri (yer və dəniz hədəflərini) məhv etməkdir.

Layihə iştirakçılarına Hərbi Hava Qüvvələrinin yaranma tarixi, arsenalında olan silahlardan, hərbi helikopterlərdə rabitə və radiotexniki vasitələrdən istifadə qaydaları, yerüstü müşahidə sistemləri, hava təhlükəsizliyi və cavabdehlik zonası, döyüş təyyarələri, hava hücumundan müdafiə vasitələri haqqında məlumat verildi. Hava məkanındakı kəşfiyyat məlumatlarının toplanılması, təhlili qaydaları izah edildi. Vurğulandı ki, bu gün ən yüksək texnologiya ilə təchiz edilən uçuş aparatları istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Həmçinin jurnalistlərə hərbi pilotların fəaliyyətləri barədə də geniş məlumat verildi.



Zabitlər təlimalanlara onu da bildirdilər ki, müasir texnoloji avadanlıqlarla təchiz edilən Hərbi Hava Qüvvələrinin hərbi hissələri döyüş növbətçiliyini yüksək səviyyədə apararaq, qoşunların qısa müddətdə döyüş vəziyyətinə gətirilməsini, eləcə də istənilən iqlim şəraitində və sutka ərzində düşmənin hava hədəflərinin izlənilməsini, qərarların vaxtında qəbulunu və aviasiya qüvvələrinin döyüş tapşırıqlarını maksimal effektiv icra edirlər.

Auditoriya təlimindən sonra təlimalanlar hərbi hissənin ərazisindəki mövcud infrastrukturla, silah və texnikalarla, məşq qurğuları ilə yaxından tanış oldular. Sonra layihə iştirakçıları şəxsi heyətlə birgə nahar etdilər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Karateçilərimiz Macarıstandan vətənə 8 medalla dönüb



Azərbaycanın yeniyetmə və gənclərdən ibarət milli komandasının üzvləri Macarıstanda 22-ci "Budapeşt Open" beynəlxalq karate turnirində 3 qızıl və 5 bürünc medal qazanıblar.

Baş məşqçi Anar Allahverdiyevin rəhbərlik etdiyi komandanın üzvlərindən 16-17 yaşlı gənclər arasında Hüseyn Məmmədli (61 kq), Ayla Rzazadə (-59 kq), həmçinin 21 yaşadək gənclər arasında Murad Hacızadə (+84 kq) qızıl medal qazanıblar.

Böyüklər arasında da özünü sınayan M.Hacızadədən (+84 kq) başqa 16-18 yaşlı gənclərdən Sultan Hüseynov (-55 kq), Tale Yaqubov (-68 kq), 21 yaşadək gənclərdən isə Hümmət Baxşəliyev (-67 kq) və Fidan Teymurova (-50 kq) bürünc mükafata sahib olublar.

Ənənəvi "Budapeşt Open" turnirinə 36 ölkədən 1875 karateçi qatılıb. Macarıstandakı yarış və sentyabrın ikinci yarısı İranın Urmiyə şəhərində daha bir beynəlxalq turnir, oktyabrın axırında Çilidə dünya çempionatına sınaq məqsədi daşıyır.

## Yunan-Roma güləşçilərimiz dünya çempionatında iki medal qazanıblar



Sentyabrın 15-də Qazaxıstanın paytaxtı Nur-Sultanda keçirilən dünya çempionatında Azərbaycanın yunan-Roma güləşçiləri iki medal qazanıblar.

Güləşçimiz Rafiq Hüseynov (82 kq) moldovalı Mixail Bradu, Ukrayna idmançısı Yuri Şkriuba, qazaxıstanlı Maxat Yerejepov və İran təmsilçisi Seyid Abdvalini məğlub edərək dünya çempionatının finalına yüksəlib. Həlledici qarşılaşmada təmsilçimiz Gürcüstan güləşçisi Laşa Qobadzeyə məğlub olaraq gümüş medalla kifayətlənib.

Dünya çempionu Eldəniz Əzizli (55 kq) də yarışa qələbə ilə başlayıb. Təmsilçimiz hindistanlı Manjet Manjeti məğlub edərək dörddəbir finala yüksəlib. İdmançımızın növbəti rəqibi Monqolustan güləşçisi Davaabandi Munh Erden olub. Rəqibini məğlub edən dünya çempionumuz yarımfinalda qazaxıstanlı Korlan Jokanşa ilə qarşılaşıb. Görüşdən məğlub ayrılan E.Əzizli bürünc medal uğrunda görüşdə Maks Emilyano Nourini (ABŞ) üstələyərək dünya çempionatını üçüncü pillədə başa vurub.

Qeyd edək ki, Dünya çempionatında 100-dən çox ölkədən 900 güləşçi 30 dəst medal uğrunda mübarizə aparır. "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda güləşçilər 108 Olimpiya vəsiqəsi uğrunda yarışırlar.

## Azərbaycan taekvondoçusu Yaponiyada təşkil edilən Qran-pri turnirinin qalibi olub



Azərbaycan taekvondoçusu Milad Beiqi Harçeqani Yaponiyanın Çiba şəhərində keçirilən Qran-pri turnirində qızıl medal qazanıb.

G4 kateqoriyalı yarışın sonuncu günündə - sentyabrın 15-də 80 kiloqram çəki dərəcəsində mübarizəyə qoşulan Olimpiya mükafatçımız bütün rəqiblərinə qalib gəlib.

İkiqat dünya çempionumuz fransalı İsmail Souhil, ispaniyalı Daniel Barrera və italiyalı Simon Allesionu mübarizədən kənarlaşdıraraq yarımfinala yüksəlib. Finala vəsiqə uğrunda xorvatiyalı Toni Kanaetlə döyüşdən də qalib ayrılan təmsilçimiz həlledici qarşılaşmada rusiyalı Maksim Kramtçovu da məğlub edib. O, bununla aktivinə 40 reytinq xalı yazdırıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində daha bir cinayət hadisəsi baş verib.

Madagiz yaşayış məntəqəsində yerləşən hərbi hissənin hamam rəisi Aseryan, üç nəfər hərbi qulluqçu tərəfindən başqa bir hərbçinin cinsi və fiziki təzyiqə məruz qaldığının şahidi olub və bu barədə komandanlığa məruzə edib. Bir gün sonra isə hadisə barədə məlumat verdiyinə görə hamam rəisi özü də fiziki təzyiqə məruz qalıb. Vəhşicəsinə döyüldüyünə görə Aseryan psixonevroloji dispanserə yerləşdirilib.

Həkimlərin dediyinə görə başından çoxlu sayda ağır zərbələr alan Aseryan, artıq hərbi formalı şəxs görəndə özünü yerə çırparaq uşaq kimi ağlayır və gələcəkdə bu xəstəlikdən sağalması mümkün olmadığından, o ömrünün sonunadək psixonevroloji dispanserdə qalmalıdır.

Hərbi hissənin məsul zabiti polkovnik Gözəlyanın raportuna əsasən, hər iki faktla bağlı və hadisəni gizlətməyə çalışan vəzifəli şəxslər barədə cinayət işi açılıb, araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Yeni tədris iliniz mübarək!




XXI əsrin "Təhsil əsri" olması cəmiyyətin bütün sahələri ilə yanaşı, bilavasitə təhsilə daha çox diqqətin yetirilməsi, müasir dünyamızın qlobal problemi kimi onu bütün fəaliyyətlərin fövqünə qaldırılması ilə nəticələndi. İnsanlığın formalaşması üçün əsas əlamətlərdən biri sayılan təhsil indiki zamanda önəmli olmaqla daha qüdrətli cəmiyyət hadisəsinə çevrildi. Dünyanın, o cümlədən ölkəmizin təhsil həyatında keçirilən islahatlar, baş verən dəyişikliklər məhz bu zərurətdən yarandı. Ardıcıl və sistemli şəkildə həyata keçirilən islahat tədbirlərində təhsilin müxtəlif pillə və səviyyələri nəzərə alınmışdır. Müstəqil Azərbaycanın təhsil siyasətinə uyğun olaraq onun dünya təhsil sisteminə inteqrasiya edilməsi zəruri şərt kimi diqqət mərkəzində saxlanılmışdır. Bir sözlə, ölkəmizin təhsil siyasətində tədris prosesi prioritet məsələ kimi daim izlənilməkdədir.

Sentyabrın 16-da Azərbaycanda 2019-2020-ci tədris ilinə start verilib. 2019-2020-ci tədris ilinin əvvəlinə olan proqnoz göstəricilərinə əsasən, yeni tədris ilində respublikanın ümumi təhsil müəssisələrində ümumilikdə 1 milyon 525 min 16 şagird təhsil alacaq.

Təhsil Nazirliyindən verilən məlumata əsasən, şagirdlərdən 714 min 259-u qız, 810 min 757-si isə oğlandır. Ümumtəhsil məktəblərinin I sinfində 164 min 234, IX sinfində 122 min 43, XI sinfində isə 82 min 782 şagirdin təhsil alacağı proqnozlaşdırılır.

Bu il Azərbaycanda 16 sentyabr Bilik Günüdür. Minlərlə övladımız bilik almaq, bacarığa yiyələnmək üçün məktəblərə, universitetlərə, peşə məktəblərinə gedir. Məktəb elə bir məkandır ki, buradakı psixoloji ab-hava övladlarımızın həyat yoluna, mənəvi dəyərlərinə, əqidə və vətəndaşlıq hissinə bilavasitə təsir edir. Uşaq məktəbdə necə formalaşacaqsa, elə də vətəndaş olacaq. Bu gün təhsilin yeni məzmun keyfiyyətinə görə biliklə yanaşı, bacarıq və qabiliyyətin formalaşmasına, bütövlükdə insan şəxsiyyətinin yetkinləşməsinə, vətəndaş şüurunun müəyyənləşməsinə zəmin olan prosesin başlanğıcıdır. Müəllimlərimiz uşaqlara nə qədər yaxşı tərbiyə verə biləcəklərsə, cəmiyyətimiz və dövlətimiz o qədər güclü olacaq və daha da inkişaf edəcəkdir. İnanırıq ki, Azərbaycan təhsili özünün zəngin ənənələrinə, milli mənəvi və ümumbəşəri dəyərlərinə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcək, dünya təhsil sistemində öz layiqli yerini tutacaqdır. Bu yolda hər kəsə yeni-yeni nailiyyətlər arzulayırıq.

Bu il məktəbə başlayan birinciləri, eləcə də bütün müəllimləri, şagird və tələbələri, onların valideynlərini bu gözəl bayram münasibəti ilə təbrik edirik. Yeni tədris iliniz mübarək!

**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 576
Nüsxə 3950